**Ümumi orta (9-illik ) təhsil səviyyəsi üzrə balların hesablanma qaydası**

| Fənnin adı | Nisbi bal | Tapşırıqların sayı | Nisbi balın hesablanması düsturu |
|---|---|---|---|
| Tədris dili | 100 | -Dil qaydalarına dair qapalı tipli 10 tapşırıq;<br><br>-Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik) və hər mətnə aid 10 tapşırıq: bunlardan: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 və qapalı tipli 8 tapşırıq (hər iki mətn üzrə ümumilikdə 20 tapşırıq).<br>Cəmi: 30 tapşırıq | $\frac{\left(2\cdot n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{qapalı})}\right)\cdot 100}{34}$ |
| Riyaziyyat | 100 | - Qapalı tipli 15 tapşırıq;<br><br>- Cavablarının kodlaşdırılması tələb olunan açıq tipli 6 tapşırıq;<br><br>- Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq.<br><br>Cəmi: 25 tapşırıq | $\frac{\left(2\cdot n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{açıq, kod.})}+n_{d(\text{qapalı})}\right)\cdot 100}{29}$ |
| Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri) | 100 | - Dinləyib-anlamaya dair 1 mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 4 tapşırıq: bunlardan doğru və yanlış cavabın seçilməsi tələb olunan 1 tapşırıq və qapalı tipli 3 tapşırıq;<br><br>- mətnə dair 8 tapşırıq; bunlardan cavablarının kodlaşdırılması tələb olunan açıq tipli 1 və qapalı tipli 7 tapşırıq;<br><br>- Qrammatika və leksikaya dair 13 tapşırıq; bunlardan cavablarının kodlaşdırılması tələb olunan açıq tipli 1 və qapalı tipli 12 tapşırıq;<br><br>- Şəkillər əsasında esse yazı tələb edən 1 tapşırıq. | $\frac{\left(n_{esse}+n_{d/y}+n_{d(\text{açıq, kod.})}+n_{d(\text{qapalı})}\right)\cdot 100}{30}$ |

| | | | |
|---|---|---|---|
| | | Cəmi: 26 tapşırıq | |

**Qeyd. 1.** nd(açıq, yazılı) – yazılı şəkildə cavablandırılması və yaxud həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlara verilən balların cəmi;

nd(açıq, kod.) – cavablarının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;

nd(qapalı) – qapalı tipli test tapşırıqlar üzrə balların cəmi;

nesse – esse yazıya verilən bal;

nd/y – doğru və yanlış cavabın seçilməsi tələb olunan tapşırıq üzrə bal;

2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.

3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilir.

4.Xarici dil üzrə doğru və yanlış cavabın seçilməsi tələb olunan tapşırıqda 4 cavab variantı təqdim olunur. Cavab variantlarından 4-nə düzgün cavab verildikdə 1 balla, 3-nə düzgün cavab verildikdə 0,5 balla, digər hallarda 0 balla qiymətləndirilir.

5. Xarici dil üzrə şəkillər əsasında esse yazı tələb edən tapşırıq markerlər tərəfindən meyarlar əsasında 5 ballıq şkalada qiymətləndirilir.

Şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə 81 tapşırıq təqdim edilir. İmtahanın müddəti 3 saatdır.